UOT 101.1:316
DOI: https://doi.org/10.30546/19063.2026.06.5501

TƏHSİL SİSTEMİNDƏ SOSİAL İŞİN ÖZÜNƏMƏXSUSLUĞU

FƏRİDƏ SƏYƏDULLA QIZI CƏBRAYILOVA
Sumqayıt Dövlət Universitetinin
Fəlsəfə, sosiologiya və politologiya kafedrasının baş müəllimi,
fəlsəfə üzrə fəlsəfə doktoru
Sumqayıt ş., Bakı küç., 1
E-mail : cebrayilovaferide@mail.ru

XÜLASƏ

Məqalədə sosial işin peşə kimi mahiyyəti açıqlanır. Müasir təhsil sistemində sosial işin əsas istiqamətləri şərh olunur. Müəllif təhsil sahəsində sosial işçinin əsas xüsusiyyətlərini, peşəkar bacarıqlarını ön plana çəkir. Məqalədə təhsil sistemində olan sosial problemlər səviyyələr üzrə qruplaşdırılır və bu problemlərin həllində sosial işçilərin fəaliyyət istiqamətləri təqdim edilir.

Açar sözlər: *sosial iş, təhsil sistemi, təhsildə sosial problemlər, sosial pedaqoq, təhsil sistemində sosial işin əsas istiqamətləri.*

Sosial iş əhalinin həssas hissəsinə kömək etmək üçün peşəkar fəaliyyətdir. Bu elm fənlərarası xarakter daşıyır və bir çox başqa elmlərlə həmsərhəddir, belə ki, tələbələr tədris prosesi zamanı psixologiya, sosiologiya, tibb, fəlsəfə, pedaqogika və bir çox başqa ictimai və humanitar elmlərin əsaslarını öyrənirlər. Tədris prosesi tələbələrin müstəqil bacarıqlarının inkişafını stimullaşdırmaq üzərində qurulur. Əsas məqsəd müasir tələblərə cavab verən nəzəri bilik və praktiki bacarıqlar əldə etməkdir. Sosial işi öyrənən tələbələr ehtiyacı olan insanlar arasında vasitəçilik etməyə, onları müstəqil qərar qəbul etməyə, sosial münaqişələrin qarşısını almağa və deviant davranışı aradan qaldırmağa imkan verən biliklərə yiyələnirlər.

Təhsil sistemində sosial işlə yalnız sosial işçilər deyil, müxtəlif mütəxəssislər - sosial pedaqoqlar və məktəb psixoloqları, müəllimlər və ixtisaslaşdırılmış təhsil müəssisələrinin işçiləri məşğul olurlar. Bu zaman iş mexanizmi, bir qayda olaraq, fərqli olsa da, məqsədləri ümumi olanlar qalır - tələbələrin sosiallaşması prosesinə təsir etmək, eyni zamanda uğurlu təhsil üçün əlverişli şərait, təhsilalanların mühitə uyğunlaşması və reabilitasiyası üçün sağlam cəmiyyət formalaşdırmaq.

Nəzərdən keçirdiyimiz sahədə sosial işin obyekti həm konkret fərdlər, həm də kiçik sosial qruplar (tədris auditoriyaları, siniflər), eləcə də təhsil müəssisəsinin bütün kollektivi hesab olunur.

Təhsil sistemində sosial işin predmeti kimi münasibətləri tarazlamaq və təhsil problemlərinin daha məhsuldar həllinə kömək etmək məqsədilə təhsil mühiti iştirakçılarının vasitəçilik fəaliyyəti nəzərdə tutulur. Bu diqqəti təkcə təhsil kollektivindəki kommunikasiya proseslərinə deyil, həm də hər bir fərdin cəmiyyətdə sosial mövqelərinin formalaşmasına, tolerantlığa və qarşılıqlı anlaşmaya kömək edən məktəbdənkənar təlimin bütün mərhələlərinə (orta məktəbdən ali məktəbə qədər) yönəldir. Sosial işçi fərdlərin və qrupların fəaliyyətlərinin xarakterinə uyğun xüsusiyyətləri nəzərə almalıdır. Təhsil mühitində sosial iş texnologiyaları kifayət qədər özünəməxsusluğu ilə seçilir [2].

Birincisi, onlar bir çox təhsil platformaları – məktəblər, kolleclər, universitetlər, inkişaf və ya korreksiyaedici xarakterli əlavə təhsil sistemi müəssisələri (ixtisaslaşdırılmış uşaq bağçaları, klublar, kurslar və s.), idman bölmələri, sosial-mədəni, milli-vətənpərvərlik və dini yönümdə fəaliyyət göstərən ictimai birliklər və təşkilatlar tərəfindən həyata keçirilir.

İkincisi, sosial işin forma və üsullarının unikallığı təkcə sosial problemlərlə, şəxsiyyətin təhsil prosesinin başlanması ilə bağlı deyil, həm də onunla şərtlənir. Sosial texnologiyaların özünəməxsusluğunu anlamaq üçün təhsil sistemindəki sosial problemləri aşağıdakı səviyyələrə görə qruplaşdırmaq lazımdır:

Birinci səviyyəyə təhsil mühitinin fəaliyyətinin məhsulu olan problemləri daxil etmək olar. Cəmiyyətin peşəkar bilik və bacarıqlara yiyələnmə səviyyəsinə olan tələbləri daim yüksəlir. Xüsusilə, cəmiyyətdə rahat mövcud olmağa imkan verən və müasir təhsil mühitinin funksiyaları ilə təkmilləşən biliklərin həcminə olan tələblər daha sürətlə artır. Bu da məktəb proqramlarının və müxtəlif səviyyələrdə peşə təhsili müəssisələrinin proqramlarının mürəkkəbləşməsinə kömək edir. Kurikulumların və standartların məzmunu və həcminə dair tələblər, tələbələr üçün kəmiyyət, keyfiyyət tələbləri də artır. Lakin tələblərin artmasına baxmayaraq, əldə edilmiş biliklərin keyfiyyət komponentinə, məktəbli və

tələbələr tərəfindən əldə edilmiş biliklərin istifadə dərəcəsinə nəzarət zəifləyir. Ağır yük xroniki xəstəlikləri olmayan uşaqların sağlamlığına, uzunmüddətli stress isə müəyyən sağlamlıq problemləri olan uşaqların psixikasına mənfi təsir göstərir.

İkinci səviyyəyə risk qrupuna daxil olan ailələrin, o cümlədən sosial problemli, aztəminatlı, son dərəcə acınacaqlı vəziyyətdə olan, o cümlədən marjinal (müxtəlif sosial qrupların, mədəniyyətlərin sərhədində olan) ailələrin uşaqlarını aid etmək olar. Aydındır ki, burada problemin səbəbləri müxtəlif olsa da, onların uşağın psixikasına təsiri adətən eynidir: nevrozlar və psixosomatik problemlər, qeyri-adekvat reaksiyalar, aqressivlik və ya əksinə, qurbanlıq, asılı davranış, autizm, öyrənməmək, peşəkar komandada işləyə bilməmək və s.

Üçüncü səviyyəyə tədris prosesi iştirakçılarının sosial ünsiyyət mexanizmləri ilə birbaşa əlaqəli problemləri (tələbələr və müəllimlər arasında, tələbə ilə tələbə komandaları arasında, müəllimlər komandası daxilində münasibətlər və s.) aiddir. Bu problemlər, ilk növbədə, müasir uşaqlarda vitamin çatışmazlığı səbəbindən müşayiət olunan hiperaktivliklə, diqqətsizliklə, eyni zamanda ətraf aləmdən daxil olan həddindən artıq informasiyanın qeyri-adekvat qavrayışı ilə şərtlənir. Zamanında bu nəzəriyyələr I.S. Konom, B.D. Parıgin və A.Y. Qureviç tərəfindən tədqiq olunmuşdu, lakin müasir şəraitdə yanaşmalar arxa plana keçərək orta məktəb üçün aktuallığını itirdi ki, bu da reallığı başa düşməyi xeyli çətinləşdirir [4].

Məsələnin digər tərəfi orta məktəb və müəllimlərin timsalında sosial qrupların peşəkar xüsusiyyətləri ilə bağlıdır. Son illərdə elmi dövriyyəyə bu qrupların sosial-peşə problemlərini, habelə qrup təmsilçilərinin səhhətinin və kifayət qədər ciddi problemə çevrilən emosional vəziyyətlərinin qeyri-qənaətbəxş olmasını xarakterizə edən "pedaqoji travma" termini daxil edilmişdir.

Təhsilalanların problemlərini aşağıdakı kimi təsnifatlaşdırmaq mümkündür:

-Təhsil proqramlarının həyata keçirilməsinin xüsusiyyətləri ilə bağlı problemlər: tələbələrin böyük əksəriyyətinin hazırlıqsızlığı, təhsil proqramlarını mənimsəməkdə çətinliklər, dərsə biganəlik və tez-tez yayınmalar, müasir məktəblilərin pedaqoji laqeydliyinin ağır forması.

-Sağlamlıq problemləri: ümumi somatik zəifləmə, orta məktəbdə təhsil zamanı yaranan müxtəlif xroniki xəstəliklər, əlillik, posttravmatik sindrom, nevroz, cərrahi müdaxilələrin psixi nəticələri və s.

-Psixofizioloji problemlər: qeyri-adekvat intellektual və şəxsi inkişaf, qeyri-qənaətbəxş performans və bəzi ali psixi funksiyaların inkişafından geri qalma, şəxsin patoxarakterioloji inkişafı, şəxsiyyətin emosional – iradi sferasının pozulması, ünsiyyət problemləri və s.

-Sosial – hüquqi sferanın yaratdığı problemlər: ailə münaqişələri, çətin həyat vəziyyəti, uşaqların hüquq və mənafelərinə hörmət edilməməsi, uşağa qarşı fiziki və ya mənəvi zorakılıq, maddi cəhətdən qeyri-sabit ailədə yaşamaq, sosial təminatsızlıq, sosial yetimlik, sosial oriyentasiya və uyğunlaşma, qanunsuz hərəkətlərə meyil və s.

Təhsil sahəsində yaranan sosial və sosial–psixoloji problemlərin həlli əsas vəzifələrdən biridir, çünki uşaq təhsil sisteminə daxil olduğu andan nəinki ətraf aləmi öyrənir, həm də özünü müxtəlif sosial rollarda sınayır və yetkinliyə qədəm qoymağa hazırlaşır. Gələcəkdə öz qabiliyyət və imkanlarına şübhə etməmək, yetkinlik dövründə uğur, özünü reallaşdırma və məmnunluq dərəcəsi qazanmaq, fiziki, mənəvi rifah, əsasən, məktəbdən və tədris prosesindən asılıdır. Ona görə də məktəbdə sosial iş çox böyük əhəmiyyət daşıyır [1].

Ölkənin iqtisadi və siyasi sferası üçün inzibati kadrlar hazırlayan müxtəlif səviyyəli peşə təhsili müəssisələrində işləmək müəllimlər üçün heç də asan deyil. Cəmiyyətin gələcəyi onların sosial-psixoloji sağlamlığından, mənəvi dəyərlərindən, həyat mövqeyindən, ünsiyyət qurmaq bacarığından asılıdır.

Sosial işçinin mənəvi-əxlaqi portreti:

Sosial işçi müvafiq peşə təhsili ilə yanaşı müəyyən norma və prinsiplərə əməl etmək üçün hazırlıqlı olmalıdır. Mənəvi-əxlaqi portret özündə sosial işçinin fəaliyyətinə kömək edən bir sıra peşəkar keyfiyyətləri ehtiva edir. Empatiya, dürüstlük, tolerantlıq peşəkarlıq, özünə nəzarət, ədalət, məxfilik kliyent ilə effektiv ünsiyyət qurmağa və çətin anlarda ona dəstək olmağa kömək edir.

Müasir təhsil sistemini tam mükəmməl hesab etmək yanlışlıq olar. Yeni texnologiyalardan və rəqəmsallaşmadan istifadəyə baxmayaraq təhsil sistemi bir sıra maneələrlə də üzləşir. Sosial bərabərsizlik, yeni problemlərin meydana çıxması, xüsusi ehtiyacı olan uşaqların sayının artıması təhsildə çətinliklərə səbəb olur.

Təhsil sistemində sosial işin əsas istiqamətləri bunlardır:

İnklüziv təhsil mühitinin yaradılması. Bu, o deməkdir ki, uşaq fərdi ehtiyaclarını ödəməkdə müstəqildir, təlim və inkişaf üçün bərabər hüquqlara malikdir.

Öyrənməkdə çətinlik çəkən uşaqlarla işləmək. Bu istiqamətə uşağın təhsildə geriləməsinin səbəbləri-

ni öyrənmək və korreksiya proqramları hazırlamaq daxildir.

Ailələrlə sosial iş. Uşaq böyütməkdə çətinlik çəkən ailələrə məsləhət və psixoloji dəstək, psixologiya və tərbiyə məsələlərinə dair seminarlar keçirmək.

Sosial işin çox vacib aspekti olan peşəkar mütəxəssis hazırlığı. Peşəkar mütəxəssis hazırlığı – müxtəlif sosial problemləri həll etməyə qadir olan mütəxəssislər yaratmağa yönəldilmiş prosesdir.

Təhsil sahəsində sosial işin təsir mühiti aşağıdakılardır:

Tədris-tərbiyəvi - uşaq və böyüklərin davranış və fəaliyyətlərinə məqsədyönlü pedaqoji təsir.

Diaqnostik - uşaqların, ailənin, sosial mühitin problemlərin, sosial-məişət şəraitinin öyrənilməsi, müsbət və mənfi təsirlərin müəyyən edilməsi.

Təşkilatçılıq - uşaq və böyüklərin, müəllim və könüllülərin sosial-pedaqoji yardım məsələlərinin həllinin təşkili, plan və proqramların həyata keçirilməsinə, tərbiyənin inkişafına dəstək.

Proqnozçu və ekspert - konkret bir mikrososiumun sosial inkişafı prosesinin proqramlaşdırılmasında, proqnozlaşdırılmasında, layihələndirilməsində, müxtəlif sosial iş institutlarının fəaliyyətində iştirak.

Təşkilati-kommunikativ - könüllülərin və hər hansı bir yaşayış məskəni əhalisinin sosial-pedaqoji işə cəlb edilməsi, birgə iş və istirahətinin təşkili, müxtəlif qurumların ailələri, uşaqları ilə qarşılıqlı əlaqənin qurulması.

Müdafiə-mühafizə - şəxsin hüquq və mənafelərini qorumaq üçün hüquq normalarından istifadə.

Vasitəçilik - uşağın maraqları naminə ailə, təhsil müəssisəsi və yaxın ətrafı ilə ünsiyyətin həyata reallaşması.

Analitik - uşaq və yeniyetmələrin deviant davranışının, ailənin sosial disfunksiyasının səbəblərini müəyyən etmək.

Korreksiyaedici - uşaqlara və yeniyetmələrə həm ailə, həm də sosial mühitdən gələn bütün tərbiyəvi təsirləri korreksiya etmək.

Sosial-profilaktik və bərpa-reabilitasiya - uşaq və yeniyetmələrin deviant və cinayətkar davranışlarının qarşısının alınması üçün profilaktik tədbirlər sisteminin təşkili.

Təhsilalanlara sosial-pedaqoji dəstək və yardım - uşağa özünü inkişaf etdirmə, özünü tanıma, özünə hörmət, özünü təsdiq etmə, özünütəşkil etmə, özünü reabilitasiya, özünü həyata keçirmə sahəsində ixtisaslı sosial-pedaqoji yardımın göstərilməsi.

Psixoterapevtik - uşağın zehni tarazlığının qayğısına qalmaq, uşaq, yeniyetmə və böyüklərlə etibarlı münasibətlər qurmaq, şəxsiyyətlərarası münaqişələrin həllinə kömək etmək, depressiya vəziyyətini aradan qaldırmaq.

Sosial iş üzrə mütəxəssislərin hazırlanmasının əsas mərhələləri:

Baza təhsili. Mütəxəssislər universitetlərdə təhsil alaraq sosiologiya, psixologiya, pedaqogika, hüquq, tibbin əsasları, etika və digər humanitar elmləri öyrənirlər. Mütəxəssislərin hazırlanmasına müxtəlif sosial qurumlarda təcrübə keçmək də daxildir.

İxtisasartırma. Əsas təhsil aldıqdan sonra mütəxəssislər daha dar ixtisaslara keçirlər. Sosial işçilər hər zaman bacarıqlarını təkmilləşdirməli və yeni ixtisaslara yiyələnməlidirlər [5].

Adətən müəllimin rolu uşaqların təhsili ilə bağlıdır. Lakin müasir dövrdə müəllimin fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir. Belə ki, uşaqlar və yeniyetmələr valideynlərinə nisbətən müəllimlərini daha tez-tez görürlər. Müəllimlər həm tələbələri lazımi məlumatlarla tanış edir, həm də bilik dünyasının motivatoru kimi çıxış edir. Sosial işdə müəllim yardım subyektidir, o, təhsil və sosial sistemdə əsas rol oynayır, hər bir tələbənin uğuru və bütövlükdə cəmiyyətin gələcəyi ondan asılıdır. Sosial işdə müəllim sadəcə pedaqoq deyil, özünün və başqalarının həyatını yaxşılığa doğru dəyişmək iqtidarında olan bilik dünyasının bələdçisidir.

Təhsil sahəsində sosial iş cəmiyyətin inkişafına əhəmiyyətli təsir göstərərək:

-Tələbələrin səmərəliliyinin və akademik göstəricilərinin artırılmasına,

-Ünsiyyət və sosial bacarıqların inkişafına,

-Mübahisə, zorakılıq, cinayət və s. kimi sosial münaqişələrin qarşısının alınmasına,

-Daha inkişaf etmiş və ədalətli cəmiyyətin formalaşmasına,

-Sosial adaptasiyanın və psixoloji rifahın yaxşılaşdırılmasına mühüm töhfə verir [3].

Təhsil sahəsində sosial iş təhsilalanlara əlverişli şərait yaradan və məqsədə çatmaq imkanı verən müasir təhsil sisteminin vacib elementidir. Təhsil sahəsində sosial işin inkişafı yalnız təhsil müəssisələrinin deyil, bütünlükdə cəmiyyətin əsas vəzifəsidir.

ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 7, I kitab, maddə 1409
2. Nuriyev S.Ş., İ brahimova D.R. Təhsildə sosial-psixoloji xidmət (dərs vəsaiti), Bakı,"Elm və təhsil", 2016, 638 səh.
3. Duyan,V. Sosyal hizmet: Temelleri, yaklaşımları, müdahale yöntemleri. Ankara: Sosyal Hizmet

Uzmanları Derneği Genel Merkezi, Yayın No: 020. 2012
4. Альжев, Д. В. Социальная педагогика.. М.:Эксмо-Пресс.-2008.-с.127.
5. Технологии социальной работы в различных сферах жизнедеятельности: Учеб. пособие / Под ред. проф. П.Д. Павленка. - М.: ИНФРА-М, 2009.-379 с.

СПЕЦИФИКА СОЦИАЛЬНОЙ РАБОТЫ В СИСТЕМЕ ОБРАЗОВАНИЯ

Фарида Саядулла Джабраилова
Доктор философии по философии

РЕЗЮМЕ

В статье раскрывается сущность социальной работы как профессии. Раскрываются основные направления социальной работы в современной системе образования. Автор выделяет основные характеристики и профессиональные навыки социального работника в сфере образования. В статье сгруппированы социальные проблемы в системе образования по уровням и представлены направления действий социальных работников по решению этих проблем.

Ключевые слова: *социальная работа, система образования, социальные проблемы в образовании, социальный педагог, основные направления социальной работы в системе образования.*

SPECIFICS OF SOCIAL WORK IN THE EDUCATION SYSTEM

Farıda Sayadulla Jabrayılova
Phd in philosophy

SUMMARY

The article reveals the essence of social work as a profession. The main directions of social work in the modern education system are revealed. The author highlights the main characteristics and professional skills of a social worker in the field of education. The article groups social problems in the education system by level and presents the directions of action of social workers to solve these problems.

Key words: *social work, education system, social problems in education, social teacher, main directions of social work in the education system.*

Rəyçi: Tarix üzrə fəlsəfə doktoru
Günel Adıgözəlova

Məqalə redaksiyaya daxil olub: 01.08.2026
Çapa qəbul olunub: 27.08.2026
The date of the admission of the article to the editorial office: 01.08.2026
Accepted for publication: 27.08.2026